

# KİTABXANALARIMIZ müharibə illərində

**1941-ci il iyun ayının 22-də faşist Almaniyası keçmiş Sovet İttifaqına qarşı xaincəsinə basqın etdi. O, Sovet İttifaqının bir sıra şəhər və kəndlərini işğal edib, onların iqtisadiyyat və mədəniyyətinə böyük zərər vurdu.**

**Böyük Vətən Müharibəsinin ilk günlərindən başlayaraq, Respublikamızın kitabxanaları da öz işlərini "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı əsasında yenidən qurdular.**

Qeyd etmək lazımdır ki, 1941-ci ilin oktyabrından başlayaraq, yerlərdə müharibə dövründə kitabxanaların vəzifələrinə həsr olunmuş metodiki müşavirələr keçirilməyə başlandı. Burada kitabxanaların qarşısında duran vəzifələr izah edilməklə, görüləcək işlər haqqında konkret göstərişlər verilir, kitabxana işinin yeni şəraitlə əlaqədar başlıca vəzifələri müəyyənləşdirilirdi. Müşavirələrdə kitabxana şəbəkəsinin sabit saxlanması, müvəqqəti çətinlik üzündən onların bağlanması hallarına yol verilməməsi məsələlərinə də ciddi diqqət yetirilirdi.

1941-ci il iyun ayının 25-dən etibarən, rəhbər təşkilatların göstərişlərinə əsasən Bakıdakı M.Qorki adına mərkəzi səyyar kitabxana fondu yanında hərbi kitabxanalara xidmət göstərilməsi məqsədilə xüsusi kitab fondu yaradıldı. Bu fonda Bakının müxtəlif kitabxanalarından və başqa təşkilatlardan da kitablar gətirilirdi. Növündən və idarə mənsubiyyətindən asılı olmayaraq kitabxanaların qarşısında duran əsas məqsəd müharibənin doğurduğu ağrıları aradan qaldırmağa yönəldilmişdi.

Bu dövrdə səyyar fond hərbi xəstəxanalar və hərbi hissələr yanında bir sıra səyyar kitabxanalar təşkil etmişdi. Hərbi xəstəxana və hərbi hissələrə səyyar xidmət göstərilirdi. 1941-ci ilin iyun ayında Bakı şəhərinin çağırış məntəqələrindən birinin yanında böyük səyyar kitabxana təşkil edilmişdi. Həmin kitabxana istirahət günlərində də 12 saat açıq olurdu. Həmin il noyabrın 14-də dəniz vağzalında səyyar məntəqə yaradılmışdı.

Müharibənin əvvəllərində M.Qorki adına mərkəzi səyyar kitabxana fondunun vasitəsilə hərbi xəstəxanalarda 282 kütləvi tədbir həyata keçirilmişdi.

Müharibə illərində Bakı mərkəzi şəhər kitabxanası özünün rəngarəng kütləvi tədbirləri ilə yadda qalmışdı. Nəzərdə tutulan dövrdə həmin kitabxananın işçiləri 45-dən 50-yə qədər kitab sərgisi, 3028 ucadan oxu və məruzə, 14 oxucu konfransı keçirmişdilər ki, bunlar da döyüşçülərin hərbi vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsində mühüm rol oynamışdı.

Həmin dövrdə M.Ə.Sabir adına şəhər kütləvi kitabxanası da geniş miqyasda kütləvi-siyasi iş apararaq, müdafiə tədbirlərinə dair göstərişləri, partiya və hökumət rəhbərlərinin çıxış və nitqlərini, hava hücumundan müdafiə haqqındakı təlimat və məlumatları təxirəsalınmadan əhaliyə çatdırırdı.

M.Ə.Sabir kitabxanası o zamankı Oktyabr rayonundakı hərbi xəstəxanalarda səyyar kitabxanalar təşkil etmiş, yaralılara kitab çatdırmaqla bərabər, 1942-1943-cü illərdə bu xəstəxanalarda siyasi, ədəbi-hərbi və s. mövzularda 417 ucadan oxu və müsahibə keçirmiş, döyüşçülər üçün cəbhələrə 1000 nüsxədən artıq qiymətli kitab və kitabça göndərmişdi.

Böyük Vətən Müharibəsi illərində kitabxana 20 izahlı bülleten buraxmışdır. Bu bülletenlərdə oxuculara Hərbi-Dəniz Donanması işçilərinin və partizanların şücaət və rəşadətindən bəhs edən ən yaxşı əsərləri oxumaq tövsiyə olunurdu.

Müharibə dövründə kitabxanalar öz fondlarından ən yaxşı elmi, kütləvi və bədii ədəbiyyatın əlavə



nüsxələrini seçib səyyar fonda verirdilər. Səyyar fondların müxtəlif ədəbiyyatla təkmilləşdirilməsinə zəhmətkeşlər də kömək göstərirdilər. 1941-ci ilin oktyabrında Bakı şəhərindəki Qubkin adına kitabxananın işçiləri "Bakinski raboçi" qəzetinin vasitəsilə səyyar kitabxana fonduna kitab toplamaq məqsədilə zəhmətkeşlərə müraciət etmişdi. Qısa müddət ərzində oxuculardan 25 min nüsxədən artıq kitab toplanmışdı.

Bakı şəhərinin ayrı-ayrı kitabxanaları bilavasitə qospitallara təhkim edilmişdi. Onlar əsgərlərin xahişi ilə müxtəlif kitabları seçib aparır, ayrı-ayrı palatalarda ucadan oxular keçirir, şikəst olmuş, gözlərini itirmiş əsgərlər üçün qəzetlərdən və kitab səhifələrindən maraqlı səhifələr seçib oxuyurdular.

Respublikamızda elmi fikrin inkişaf etdirilməsində, elmi ədəbiyyatın təbliğində M.F.Axudov adına Azərbaycan Dövlət Kitabxanasının (indiki Milli Kitabxana) xüsusi xidməti var idi. Kitabxana müharibənin ilk günlərindən öz işini müharibənin gedişi ilə əlaqədar dövlətin qarşıya qoyduğu vəzifələrə yönəltmişdi. 1941-ci ildə kitabxanada "Böyük Vətən müharibəsi" adlı kataloq və kartotekada müharibə mövzusuna dair əsərlər, rəhbər materiallar, qəzet, jurnal məqalələri toplanmışdı. Təkcə 1942-ci ildə 29 tövsiyə biblioqrafiyası vəsaiti tərtib edilmişdi. "Böyük Vətən müharibəsi - 1941" adlı 56 mövzudan ibarət tövsiyə göstəriciləri tərtib olunmuşdu. Dövlət Kitabxanası bu illərdə respublikanın bütün kitabxanalarına metodiki rəhbərlik işini həyata keçirir, ayrı-ayrı kütləvi kitabxanaların təşkil etdikləri səyyar kitabxanaların ədəbiyyatla zənginləşməsinə kömək göstərirdi. Əməkdaşlar müxtəlif qospitallara gedir, ayrı-ayrı palatalara təhkim olunur və yaralı əsgərlərə xidmət edirdilər. Yeri düşmüşkən qeyd edək ki, kitabxana müharibə dövründə 40 min oxucuya xidmət etmiş və onlara milyondan artıq kitab, qəzet və jurnal vermişdir.

Müharibə illərində kitabxanaların arxa cəbhədə göstərdikləri xidmət bu gün diqqətimizi daha çox cəlb edir. Kitabxana fondlarında ədəbiyyatın azlığına, maliyyə vəsaitinin qıtlığına, kadrların sayının az olmasına baxmayaraq, onlar hərbi qospitallara, yaralı əsgərlərə hərtərəfli kömək göstərmişlər. İlk baxışda hörmətli oxuculara bu sahədə görülən işlər, qazanılmış göstəricilər adı təsir bağışlaya, sadə görünə bilər. Amma unutmaq lazım deyil ki, söhbət 60-65 il bundan əvvəlki ağır vəziyyət, dözülməz şəraitdən gedir. Axı o zaman indiki kitabxana və kitab bolluğu yox idi. Odur ki, həmin rəqəmlər o dövr üçün böyük nailiyyət hesab edilirdi.

Biz bu fikri əsas götürürük ki, müstəqil dövlətimizin gündən-günə inkişaf edərək çiçəkləndiyi indiki dövrdə də respublikamızın bütün kitabxanaları Azərbaycan ordusunun əsgərlərinə kitabxana və biblioqrafiya xidmətini günün tələbləri səviyyəsinə qaldırmalıdırlar. Əlbəttə, bu mühüm işdə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının rolu daha da artmalıdır. Dövlət kitabxanası Azərbaycan Respublikasının 76 mərkəzləşdirilmiş kitabxana sisteminə metodik təlimat işini həyata keçirir. Şübhəsiz ki, həmin sistemlərin fəaliyyət göstərdiyi ərazidə "N" saylı hərbi hissələr də yerləşdirilmişdir. MKS-in işçiləri həmin hərbi hissələrin nəzdində səyyar kitabxanalar təşkil etməli, onları əsgərlərimiz üçün maraqlı olan kitablarla, dövri mətbuat materialları ilə zənginləşdirməlidirlər.

Kitabxanalar əyani və şifahi təbliğatın kitab sərgisi, kitabxana plakatı, stend, söhbət, məruzə, bədii gecə, oxucu konfransı və s. formalarından istifadə edərək, "N" hərbi hissələrində yerləşən kitabxanalara və sonradan yaradılmış müvəqqəti xarakterli səyyar kitabxanalara hərtərəfli metodiki köməklik göstərməlidirlər. Bununla yanaşı, qaçqın düşmüş və müəyyən ərazilərdə məskunlaşmış sakinlərə səyyar kitabxana xidməti göstərilməli, yeri gəldikcə, qaçqınlardan da sabit kitabxanalarda işləməyə götürülməlidirlər.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərtib etdiyi illik iş planlarında MKS-ə istiqamət verməlidir ki, onlar "N" saylı hərbi hissələrinə vaxtaşırı metodiki köməklik göstərsinlər. Azərbaycan ordusu əsgərlərinin hərbi vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi üçün hərbi mövzularda məruzələr təşkil etsinlər. Bunlardan başqa, "N" saylı hərbi hissələrinin kitabxana fondlarının cari və keçmiş illərdə nəşr olunmuş ədəbiyyatla komplektləşdirilməsinə kömək göstərsinlər.

Deyilənləri yekunlaşdırıb, belə bir nəticəyə gəlmək olar ki, başda Milli Kitabxana olmaqla, respublikanın mərkəzləşdirilmiş kitabxana sistemləri və başqa kitabxanalar "N" hərbi hissələrin kitabxanalarını, eləcə də qaçqın düşərgələrində yerləşən kitabxanaları zəruri materiallarla təmin etməli və onlarda çalışan kitabxana kadrlarının ixtisas biliklərini yüksəltmək qayğısına qalmalıdırlar.

**D.Bayramov,**
**M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının şöbə müdiri**